## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 13 aprel (Bazar günü) tarixli 156-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Yekşənbə, 12 rəcəbül-mürəccəb sənə 1337.
13 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Maliyyə nazirinin qətnaməsi**

8 aprel 1919 sənə

Aksiz patentlərinin artırılması xüsusunda bu ilin 6 mart[ın]da qəbul olunmuş qanunun 1-ci fəsli mövcibincə [əsasında] Maliyyə naziri şunu qət etdi:

1) Aksiz vergili ticarətə və sənaətə [sənayeyə] patent almış şəxslərin, həmin ticarətlərin və sənaətlərin alınmış patentlərin qiymətinə münasib və bunlara 25%, 10%, 50% xəzinə mənfəətinə əlavə edərək yürüdə bilərlər; lakin vaxtın hesabı 6 mart qanunu mövcibincə patentin qiymətindən hesab olunur.

2) İşbu qətnamənin əvvəlinci maddəsində zikr olunmuş vaxtdan sonra ticarət və sənaət sahibləri öz işlərinə davam etmək istədikdə, vaxtın bitdiyi günə 6 mart qanunu mövcibincə təyin olunmuş qiymətə nəzərən içki ticarəti üçün 6 aylıq və qeyri ticarət üçün bir illik patentlərin təfavütünü Hökumət xəzinəsinə verib, qəbzlərini Aksiz İdarəsinə pişnihad [təqdim] etsinlər.

Qeyd: Patentləri təftiş olan gündə vaxtları bitmiş ticarətxanalara yeddi günə kimi patentlərin təfavütünü Hökumət xəzinəsinə verməyə müsaidə olunur.

3) O şəxslər, hansılar ki, Hökumət xəzinəsinə yuxarıda zikr olunmuş fəsillər mövcibincə patentlərin təfavütünü verməyiblər, ticarətlərinə və sənaətlərinə davam edəmməzlər, edərlərsə patentsiz ticarət adlanaraq qanuna münasib cəzalanacaqlar.

4) Patentlərin təfavütünü yeddi günə kimi verməyənlərdən aksiz müfəttişləri patentləri alırlar.

*Əslinə mütabiqdir: M[əhəmməd bəy] Hacıyev*

**Qanun**

6 martda 1919 sənədə Məclisi-Məbusan tərəfindən qəbul olunmuş aksiz və patentlərin fiyatını artırmaq xüsusunda qanun.

1) İçki və tütün patentlərinin fiyatları 1919 sənəsinin yanvar ayının 1-dən 10 dəfə artırılır.

2) İçki ticarətindən 25% və tütün ticarətindən 10% və 50% vergisi qanunu ləğv olunur.

3) Aksiz vergisi qanununun 112-ci fəslinin üçüncü qeydini böylə oxumalı:

Patent vergisi yerlərindən əvvəlinci sinifə daxil olunur: Bakı şəhəri və Gəncə şəhəri istasyonu ilə bərabər; ikinci sinifə – cəmi qəza şəhərləri, tren üstündə olan köylər və yaylaq kəndləri, böyük ticarətləri olan kəndlər, sərhədlərdə olan kəndlər və körpülər; üçüncü sinifə - cəmi qeyri yerlər.

Üçüncü sinifə daxil olan kəndlərin və yerlərin adlarını və saylarını Maliyyə naziri ilə Daxiliyyə naziri təyin edirlər.

*Əslinə mütabiqdir:*
*M[əhəmməd bəy] Hacıyev*

**Maliyyə nazirinin qətnaməsi**

8 aprel 1919 sənə, nömrə 1

6 mart 1919 sənədəki qanunun ikinci maddəsinə binaən [görə], Aksiz qanununun 248, 249, 252 və 279-cu fəsilləri mövcibincə aksizsiz üzüm və meyvə arağının və konyakın buraxılması may ayının 1-dən etibarən ləğv olunur.

*Əslinə mütabiqdir:*
*Məhəmməd bəy Hacıyev*

1919 6 martda Məclisi-Məbusan qəbul etmiş aksizsiz üzüm və meyvə arağının və konyakın buraxılmasını ləğv etmək xüsusunda qanundur.

[1] Aksiz qanun külliyyatının 348, 349-353, 379-381 fəsilləri mövcibincə [əsasında] aksizsiz araq və konyak buraxılması ləğv olunur.

2) Hansı vaxtdan sonra aksizsiz spirto hazır etmək ləğv olunacağını təyin etmək Maliyyə nazirinə həvalə olunur.

Surəti imzalanmış

*Surətinə mütabiqdir:*
*M[əhəmməd bəy] Hacıyev*

## SİYASƏTƏ QARIŞMAZ

Oxuyucular bilirlər ki, Məclisi-Məbusan qanunnaməsinin bir fəslinə görə Bakıdakı Həmkarlar Şurasının dəxi Məclisə üç əza [üzv] göndərmək haqqı vardır.

Bu qanuna binaən [görə], vaxtilə Hökumət rəisi Fətəli xan Xoyskinin Həmkarlar Şurası idarəsinə (Soyuza) vəkillərini göndərmək üçün yazdığı kağızına məzkur [adı çəkilən] idarənin nə kimi şiddətli bir rədd məktubu yazdığı məlumdur. Bu kağızla Soyuz bütün Bakı proletariyasına nümayəndəlik edərək Məclisi-Məbusanı və Azərbaycan Hökumətini inkar edir, əmələlərin rəyi[nin] demokratik və vahid Rusiya ilə olduğunu söyləyirdi.

Bu o zamanlarda idi ki, bu gün bolşeviklərlə qucuşmaqda və öpüşməkdə olan Roxlinlər və bilxassə Sako Saakyanlar bizi dənizlər adlayıb, dərələr keçib də Ufa hökuməti ilə yapışdırmaq istəyirlərdi.

Zaman dəyişdi, ufaçılar [Məclisi]-Məbusana gəlmək istədilər. Ərizə yazdılar. Müsəlman sosialistləri də öz tərəflərindən Soyuzu Məclisə gətirmək istədilər. Bu dəfə Soyuz şiddətlə deyil, hikmətlə rədd edirdi. Əsas etibarilə biz Məclisin əleyhində deyiliz; yalnız bu qədər var ki, dedilər:

– Həmkarlar İttifaqı siyasətə qarışmaz!

Atılan qədəmin bu, zahiri dəlili idi. Batini dəlili dəxi o qədər üstüörtülü bir şey deyildi. Müsəlman əmələlər Məclisi-Məbusan tərəfində idi. İlk günlərdə olduğu kimi türk demokratiyası təşkilatsız və səssiz dəxi deyildi. Əmələ Konfransında rəislərin ikiüzlü siyasətləri puçunurdu [puç edilirdi]. Rus əmələləri isə biləks [əksinə] [Məclisi]-Məbusanın əleyhində idilər. Soyuz iki tərəfi də incitmək istəməyirdi. Onun üçün də Həmkarlar İttifaqının siyasi deyil, sinfi və silki bir müəssisə olduğunu xatırlayır, bu surətlə həm xoşbavər [sadəlövh] müsəlman sosialistlərini, həm də inadçı rus demokratiyasını razı salırdı.

Günlər keçdi, həftələr ötdü. Çurayev-Roxlin və kompaniyasının ruhunda başqa bir dönüklük hasil oldu. Artıq böyük Rusiya fəraqı [ayrılığı, həsrəti] ilə titrəyən millətlər, əldən çıxmış hakimiyyət üçün sızlayan ciyərlər Ufadan deyil, Moskvadan ümid bəkləməkdə, rus idarəsinin gəlişini gözləyən həsrətkeş gözlər "Qızıl ordunun" hərəkətinə baxmaqda idilər.

Meydanda yeni simalar, yeni isimlər zühur edir: Bakı əmələsinin mürşidi sayılan Roxlin haranın çağalası bəlli olmayan mirzoyanlara tərki-mövqe eyləmək [öz yerini vermək] məcburiyyətində qalır.

"İskra" və "Znamya truda" qəzetələri "bolşevizm"ə doğru yol tutmaq, "sovet" hökumətini tanımaqdan bəhs edirlər.

Bu məqsədlə yeni manevrələr başlayır: Zaqafqaziya, Dağıstan və Zakaspi həmkarlar ittifaqının ictiması [yığıncağı].

Professionalnı soyuzlar syezdi [Həmkarlar Şuraları Qurultayı].

Bu syezdə iqtisadi məsələlərdən əlavə və ümdə olaraq siyasi məsələlər, bilxassə [xüsusilə] Zaqafqaziya dövlətlərinin ittihadı [birliyi] kimi məsələlər qoyulur.

Tiflis mərkəzi soyuzu başda olan bütün Gürcüstan soyuzları bu proqramı qəbul etməyirlər. Sırf iqtisadiyyata aid olmaq və həm də Zaqafqaziya dairəsinə şamil olmaq üzrə Tiflisdə bir syezd çağırırlar. Bakıda bir, Tiflisdə iki syezd açılır.

Məqsəd hasil olmayır. Bakılıların istədiyi "demokratiya ittifaqı", təbiri-məxsusla "cəbhə bütünlüyü" hasil olmayır.

İstiqlalçı gürcülər ayrılırlar.

Nə isə, syezd toplanır. Tamam da olmasa, açılır. Deyirlər ki, bu Azərbaycan ilə Dağıstan və Zakaspi syezdidir. Fəqət heyəti-ümumiyyəsi etibarı ilə bu, rus əmələlərinin syezdidir.

Həmkarlar İttifaqı siyasətə qarışmaz!

Fəqət Həmkarlar İttifaqının syezdi siyasətdən başqa bir şeylə məşğul olmadı. Soyuzlar naminə toplanan hakimiyyətə həsrətkeş böyük rusiyaçı siyasilər həman vahid Rusiyadan, bolşevizmdən, hökuməti ələ almaq lüzumundan bəhs edib durdular.

Bizim sosialistlər dəxi bu vahid Rusiya eşqilə qızışan qafalar içində, alqışlara məzhər [nail] olaraq söz söylədilər; söylədikləri sözlərinin "demokratik Rusiya ilə onlar da əsasən zidd deyildirlər" məfhumundakı qismi o qədər gurultulu alqışlara nail oldu ki, "millətlər təyini-müqəddərata haqlıdırlar" misalındakı cümlələrini tamamilə gurultuya vermiş oldu.

Bilməm böylə Həmkarlar İttifaqının syezdi deyil, qaynar bir siyasət qazanı içində qızışan "Hümmət"çilər, Həmkarlar İttifaqı Şurasının vaxtilə kəndilərinə yazmış olduğu:

– Soyuz siyasətə qarışmaz! – məzmunlu kağızı xatırladılarmı? Yoxsa "İnternasional" mahnısının avazi-dilarası [könül alan avazı] təsiri iləmi hər şey unuduldu?!..

Hər şey unudulsa da, bir şey qətiyyən unudulmaz. Bunu əlbəttə ki, bizim sosialistlər dəxi bilxassə nəzərdə tutar; süni bir surətdə çağırılan "soyuzlar syezdi"ni, bərfərz [fərz edək ki] Azərbaycan əmələsinin misli kimi qələmə vermək istəyənlərə "yalan söyləyirsiniz" – deyərlər.

Azərbaycan demokratiyasının özəyini təşkil edən türk demokratiyası bu syezddə yoxdur, syezd yalnız hakimiyyətə həsrətkeş ruslardan və rusiyaçı politikanlardan ibarətdir.

Bu syezdin böylə olduğunu bilərək gürcü demokratiyası, Ermənistan demokratiyası kimi, türk demokratiyası kəndi münasibatını ona nisbət mənfi bir surətdə təyin etmiş oldu.

"Hümmət"çilərin və yaxud Azərbaycan sosialist-revolyusionerlərinin firqə nümayəndəsi olaraq orada iştirakları qətiyyən bu syezdin türk demokratiyası iştirakı ilə toplandığına dəlil olammaz.

Bu, Həmkarlar İttifaqının deyil, Rusiya hakimiyyətinə həsrətkeş bulunan politikaçıların syezdidir.

Yoxsa:

– Həmkarlar İttifaqı siyasətə qarışmaz!

*M. Ə.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

7 aprel 1919. İclas saat 11.55 dəqiqədə açılır.

**Sədr** - Həsən bəy Ağayev.

**Katib** - Mehdi bəy Hacınski.

**Sədr** - Məclis açılır. Yövmiyyeyi-müzakiratımız [müzakirə gündəliyimiz] keçən iclasdan qalmış Daxiliyyə Nazarətinin məvaciblər təzayüdü [artırılması] haqqındakı qanun layihəsi, sonra Hərbiyyə məhkəməsi təsisi haqqında verilən layiheyi-qanuniyyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında poçta və teleqraf münasibatı haqqında qanun layihəsi. Bunlardan savayı bir-iki günün ərzində iki qanun layihəsi daxil olmuşdur. Bunların biri hökumətə yenidən 410 milyon para buraxmaq müsaidəsi layihəsi, digəri Kür nəhri kənarında olan sədlərin təmiri üçün 641 min rublə buraxmaq barəsində Ziraət Nəzarəti [Əkinçilik Nazirliyi] tərəfindən daxil olmuş qanun layihəsidir. Göyçay şəhəri tərəfindən Parlamana intixab olunmuş [seçilmiş] mirovoy sudya [məhkəmə hakimi] Rza bəy Ağabəyovun intixabı haqqında bəratülqövl [protokol] və sair kağızlar varid olmuşdur [gəlmişdir]. Beləliklə, Rza bəy Ağabəyov Parlamana daxil olur. *(Rusca tərcümə edir)* Hərgah bu cür tərtib olunmuş yövmiyyeyi-müzakirata etiraz yoxsa, qəbul olunur. Ərz eylədiyim iki layihədən birisi: 410 milyon pul buraxılması üçün Hökumətə müsaidə verilməsi haqqındakı qanun layihəsi Maliyyə-Büdcə komisyonuna göndərilir. İkinci: Ziraət Nəzarəti tərəfindən idxal edilən qanun layihəsi hakəza [habelə, eləcə də] Büdcə-Maliyyə komisyonuna verilir. Ağabəyovun mandatı Mandat komisyonuna göndərilir. Növbədəki məsələ Daxiliyyə Nəzarəti tərəfindən maaş təzayüdü haqqında daxil edilmiş qanun layihəsinin üçüncü qiraətidir. Məruzəçi Musa bəy Rəfibəyov.

**Səslər** - Məruzəçi iclasda yoxdur.

**Sədr** - Öylə isə müsaidə buyursanız, məruzəçi gələnə qədər növbədəki ikinci layihəni müzakirəyə qoyarıq, etiraz yoxdur ki?

**Səslər** - Etiraz yoxdur.

**Sədr** - Etiraz yoxsa, müzakirəyə Hərbiyyə məhkəməsi təsisi haqqındakı layihə qoyulur. Məruzəçi Şəfi bəy Rüstəmbəyovdur.

**Rüstəmbəyov** - Azərbaycanda hərbi məhkəmə təşkil edilməsi üçün Hərbiyyə naziri tərəfindən bir layiheyi-qanuniyyə idxal edilmişdir. Bu layihəyəLəvayehi-qanuniyyə komisyonunda baxılmışdır. Azərbaycanda Məhkəmeyi-hərbiyyə lazım olduğuna, yaxın gələcəkdə Azərbaycanda böylə qanun düzəltmək mümkün olmadığından Hərbiyyə naziri köhnə Rusiya qanunlarını Rusiya Müvəqqət hökuməti dəyişdiyi surətdə Azərbaycan məhkəməsində işlətməyi təklif edir. Bu qanunda bir neçə maddələr vardır ki, Müvəqqət Rusiya hökuməti yazmışdı. Hərbiyyə naziri həman maddələri dəyişməyi lazım görmüşdür. Hərbiyyə məhkəməsi son zamanlar intixab təriqi ilə [seçki yoluyla] olurdu. Saldatlar və zabitlər onda iştirak edirdi. Hərbiyyə naziri bunu mümkün görməyir və bunun dəyişilməsini təklif edir. Bu layihəyə görə Hərbiyyə məhkəməsi Hərbiyyə nazirinin təyini ilə olmalıdır. Bu qanunda bir maddə vardır ki, Müvəqqət Rusiya hökuməti qoymuşdu. Hərbiyyə naziri o maddənin qalmasını lazım görür. Əvvəldən əsgəri işlərə aid olan şikayətlər Hərbiyyə məhkəməsinə verilirdi. Sonra Müvəqqət hökumət dövründə bir qanun verilərək Divani-hərb [Hərbi məhkəmə] tərəfindən baxılan işlərin həpsinin məhkəmeyi-mülkiyyədə [mülki məhkəmədə] baxılmasına əmr edildi. Bu surətlə ağır və mühüm işlərə istinaf [apellyasiya], yüngül və xırda işlərə isə müsalihə [sülh] məhkəməsi baxırdı. Hərbiyyə naziri bu qanunu dəyişir. Çünki qoşun tez-tez bir yerdən o biri yerə köçür, yerini dəyişir. Məhkəmədə işi olan bir qoşun fərdini və şahidləri həmişə bir yerdə saxlayıb məhkəməyə yığmaq olmayır. İş məhkəməsiz qalır, ləngə düşür. Ona görə də lazım bilir ki, məhkəmə qoşunun öz arasında olsun. Bu məqsədlə qoşuna aid işlərin Hərbiyyə məhkəməsinə verilməsi lazım görülmüşdür. Bu nöqteyi-nəzərdən Hərbiyyə naziri bir layihə düzəltmişdir. Bu layihəyə Ləvayehi-qanuniyyə komisyonunun bir təshihi vardır ki, onu da axırda deyəcəyəm. Layihə budur. *(Layihəni oxuyur)*

**Rüstəmbəyov** *(Layihəni bitirdikdən sonra)* - Ləvayehi-qanuniyyə komisyonunun təshihi budur: Qanun layihəsinin 25-ci maddəsində deyilir ki: Təmyiz [kassasiya] məhkəməsi olmadığından, nahiyə məhkəməsində kəsilən iş təmyiz məhkəməsi təşkil olunanadək Hərbiyyə nazirinin ixtiyarına verilsin.

**Sədr** - Söz Sultanməcid Qənizadənindir.

**Sultanməcid** (İttihad) - Layihənin o hissəsini ki, məhkəməni düzəltmək və məhkəmə heyəti və üzvləri nə cür düzələcək, aydın başa düşmək olmadısa da, bu barədə bir söz demək istəməzdim. Çünki məhkəmə üzvü bir olacaq, iki olacaq onlar əhəmiyyətli deyildir. Ancaq burasını demək istərdim ki, əsasən Hərbiyyə məhkəməsinin köhnə qanun üzrə qalması bizə yaramaz. Ondan ötrü ki, hərbiyyunun [hərbçilərin, əsgərlərin] ayaqqabısına, yemək-içməyinə fikir verdikdə, öz millətimizin ruhani tələbatını yeməyə isnad vermək [mənəvi dəyərləri nəzərə almamaq] müvafiq deyil. Biz buna razı olmarız ki, millətin ruhani, yəni məhkəmə üsuli-qanuniyyə cəhətini köhnə məhkəməyə müvafiq yetirək. Çünki bu Hərbi məhkəmə qanunu çarizm vaxtında verilmişdi, sonra hürriyyət alınanda müvafiq görülmədi. Ona görə də inqilab zamanında onun əsaslarını dəyişdirmək lazım göründü; yəni intixab [seçki] olsun, nəsb [təyinat] olmasın; ya camaat, ya Parlaman tərəfindən. İndi biz onu pozuban istibdadın köhnə qanununu qəbul etməyə razı olmarız. Hərçənd burada deyilir ki, müvəqqətidir, vaxt təngdir [dardır, azdır], qanun düzəltmək mümkün olmadı. Lakin mən deyərdim ki, işin əvvəlində müvəqqətən də olsa, köhnə əsasları meydana gətirmək camaat nəzərində yaxşı görünməz. Güman edirəm, möhtərəm məbuslar şahiddirlər ki, okrujnı sudda [qəza məhkəməsində], yəni o gün ki ümumən Azərbaycan Məhkəmə qanunu barəsində yığıncaq vardı, məlum oldu ki, Aleksandri-saninin [İkinci Aleksandrın] qanunu bilküliyyə [bütövlükdə] qəbul olunur və məlum oldu ki, köhnə qanunu, yəni Aleksandri-saninin qanununu qəbul etməklə böyük hikmət göstərmişik və hətta belə qərar qoyuldu ki, buna qərar verənlərə heykəl qoyulsun və adları da mərmərə yazılsın. Aleksandri-saninin qanununu ki, qəbul etmişik, o qanun indiki cümhuriyyət, milliyyət və hürriyyətimiz əsaslarına ziddir. Hərgah əhalinin danışdığı sözlərinə və əfkarına [fikirlərinə] qulaq assaq görərik ki, səhv etmişik. Qanuna qərar verənlərin adları nəinki mərmər lövhələrdə yazılmalıdır, bəlkə kağızlardan da pozulub məhv olmalıdır.

Şimdi bu məhkəmə məsələsi böyük bir məsələdir. Məsələn, əsakir [əsgərlər] üsyan etdi. Görək bunlar nə cür tənbeh olunacaqlar, ya başqalarına nə cür cəza veriləcəkdir. Yəni indi burada voyennipolevoy sud [hərbi-səhra məhkəməsi] zahirdə, ümumun nəzərində, göz qabağında qisaslar, zəcirlər [cəzalar] və tənbehlər verilməsi böyük məsələdir. Görək bu nə cür icra olacaqdır. Bu barədə danışıq olacaq. İndi biz istiqlaliyyət, hürriyyət, milliyyət, insaf və vicdanidiniyyə əsaslarına müvafiq qanunlar yaratmalı ikən, köhnə istibdad qanunlarını qəbul etmək bizə yaraşmaz. Mən layihənin təfsilatı barəsində danışmayıb əsasən deyərdim ki, bu layihənin köhnə qanun üzrə qalmasına etiraz edirik.

**Camalbəyov** - Möhtərəm məbuslar! Rusiya inqilabi-kəbiri [Böyük Rusiya inqilabı] hökumətdə idarə üsulunu bir növ dəyişmişdi və Müvəqqət hökumət hərbiyyə məhkəmələrini ləğv etmişdi. Şimdiki layihə ilə bizə təklif olunur ki, köhnə hökumət üsulunu təzədən qəbul edək.

Bizə o üsulu təklif edirlər ki, Azərbaycan Cümhuriyyətində köhnə rus qaydası ilə Hərbiyyə məhkəməsi təsis edilsin. Biz sosialistlər hərbi və miri [mülki] məhkəmələrin intixabat [seçkilər] üsulu ilə təsisi tərəfdarı olmuşuz və tərəfdarıyız. Binaən [ona görə], bu nöqteyi-nəzərdən tələb ediriz ki, Rusiyanın yeni hökumətinin qoymuş olduğu əsası indi müvəqqətən Azərbaycan Cümhuriyyətində də tətbiq edilsin. Əgər böylə olmasa, Sosialistlər fraksiyonu öz tələbində israrla qanunun əleyhinə səs verəcəkdir.

**[İsak Nikitiç] Xocayev** - Rusca bir nitq söyləyərək təhvini-cəza [cəzanın yüngülləşdirilməsi] haqqındakı maddə ilə təmyiz[ə] (kassasiya) Hərbiyyə nazirinin baxması müqabilinə etirazla təhvini-cəzanın Rəisi-vükəla [Baş nazir], kassasiyanın isə Hərbiyyə naziri indində [nəzdində] təşəkkül edəcək olan xüsusi bir mütəxəssislər komissiyasına verilməsini və 7-ci maddənin bir qədər təbdilini [dəyişdirilməsini] təklif edir.

**[Stanislav] Vanseviç** *(rusca)* - Komissiya tərəfindən kassasiya barəsində izahat verərək deyir ki, Təmyiz [kassasiya] məhkəməsi haqqında xüsusi komissiya tərəfindən bir layihə tərtib verilir və yaxın zamanda layihə Parlamana idxal edilərək bir ayadək Təmyiz məhkəməsi mövcud olacaqdır. Nəzarət nəzdində yeni bir mütəxəssislər komissiyası təsisi az zaman çəkməz. Böylə ki, xüsusi komissiya təşəkkül edincə, Təmyiz məhkəməsi də hazır olacaqdır. Binaənileyh [ona görə], komissiya təşkilinə ehtiyac yoxdur.

**Sədr** - Daha danışmaq istəyən yoxdurmu? Yoxsa, söz məruzəçi Şəfi bəy Rüstəmbəylinindir.

**Şəfi bəy** - Tarixdən məlumdur ki, köhnə hökumətdən ayrılıb da hələ özü üçün yeni qanunlar verməmiş olan təzə məmləkətlər həmişə köhnə hökumətin qanunu ilə getmişlərdir. Hər yerdə, hər millətdə, hər məmləkətin tarixində bu, böylə görülmüşdür. Biz dəxi hələlik özümüz üçün təzə qanun verməmiş olduğumuzdan, bir müddət sabiq hökumətin qanunu ilə getməliyiz. Fəqət, əlbəttə ki, türk-islam Azərbaycan həyatına müvafiq olmayan qanunlar özü-özündən ləğv olub gedəcəklərdir. Amma birdən-birə köhnə hökumətin qanununu atmaq olmaz, çünki bu o vaxt olardı ki, hökumətimiz özü qanun vermiş olaydı. Ona görədir ki, Hərbiyyə Nəzarəti də köhnə nizamnaməni qəbul və eyni zamanda bu nizamnamədən bizə müvafiq olmayan maddələri ləğv edir. Ona görə Ləvayehi-qanuniyyə komissiyası təklif edir ki, sair qanunlar kimi Məhkəmeyi-hərbiyyə təşkili haqqında da köhnə qanun qəbul olunsun. Bir də Camalbəyov deyir ki, məhkəmə seçki əsası ilə təşkil edilsin. Rusiyada seçki əsası ilə idarələr qurulmasının nə surət aldığını və necə nəticələr verdiyini yaxşıca gördük. Onu artıq öz vətənimizdə də görmək istəmərik. *(Soldan səslər)* Bir də, Avropada heç bir yerdə seçki əsası ilə qurulmuş məhkəmə yoxdur. *(Soldan: Avropa demokratik üsul ilə idarə olunmayır.)* Xocayev cənabları 14-cü maddənin təbdilini [dəyişdirilməsini] və 4 ay əvəzinə 6 ay qərar verilməsini təklif edir. Burada Hərbiyyə Nəzarətinin adamı olsaydı izahat verərdi. Amma komissiya üçün heç bir fərqi yoxdur 4 ya 6 ay olsun və texnika məsələsidir. Bundan əlavə, 26-cı maddədə təhvini-cəzanın kimin ixtiyarında olmasından bəhslə, bu ixtiyarın Rəisi-vükəlaya verilməsini təklif edir. Mən təklif edərdim ki, o maddə həman komisyonun göstərdiyi kimi qalsın. Bir də 24-cü maddəni tənqid edərək deyir ki, kassasiya Hərbiyyə nazirinə deyil, komisyona verilsin. Mən buna da razı ola bilmərəm. Çünki məlumdur ki, hər işə Hərbiyyə naziri özü təkbaşına baxmayacaqdır. Yəqin onun yanında bir şura olacaqdır ki, həmin şurada yaxşı hüquqşünaslar dəxi olacaqlardır. Binaənileyh, kassasiyaya da Hərbiyyə naziri təkbaşına deyil, mütəxəssis təcrübəli adamlar baxacaqlardır. Ona görə təklif edərdim, bu maddə dəxi eyni məzmunla qalsın.

Layihə maddəbəmaddə oxunaraq 7, 24 və 25-ci maddələr Ləvayehi-qanuniyyə komissiyasına qaytarılaraq, yerdə qalan maddələr qəbul olunur.

Bundan sonra Daxiliyyə Nəzarəti tərəfindən xidmətçilərin maaşının artırılması və bəzi məmuriyyətlərin ləğvi və təsisi haqqındakı qanun layihəsinin 3-cü qiraətinə keçilir. Səsə qonulduqda, sosialistlər əleyhinə olmaq üzrə əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir.

Növbədəki Azərbaycan Hökuməti ilə Ermənistan və Gürcüstan hökumətləri arasında əqd edilmiş [imzalanmış] post-teleqraf müqavilənaməsinin təsdiqidir. Məruzəçi Şəfi bəy Rüstəmbəyli Azərbaycan-Ermənistan müqavilənaməsini oxuyur və Parlaman təsdiq edir. Vaxt gec olduğundan Azərbaycan-Gürcüstan müqavilənaməsinin qiraəti gələn iclasa təxir edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Amerika və Yaponiya**

Vaşinqton - Tyanszində olan hadisat barəsində qəzetələr böylə əlavəli məlumat verirlər: Pekində olan Amerika səfiri Dövləti Departamentə xəbər vermişdir ki, Tyanszində Amerika saldatları ilə Yaponiya polisi və camaatı arasında müsadimə [toqquşma] vaqe olmuşdur. Məhəlli [yerli] qəzetələr deyirlər ki, Amerika bəhriyyunları [matrosları] Yaponiya konsulxanasını təhqir etmişlərdir. Verilən xəbərlərə nəzərən, müqəssirlərə tənbeh edilib [cəza verilib], Yaponiya Hökumətindən üzr istəniləcəkdir.

**Müttəfiqlər və Almaniya**

Paris - Almaniya alacağı ərzağa müqabil qızıl verəcəkdir. Almaniyaya icazə verilmişdir ki, Şimal dənizində balıq tutsun. Ablukanı [blokadanı] yüngülləşdirmək üçün lazım gələn tədbirlər ittixaz edilmişdir [tədbirlər görülmüşdür].

**Yeni Kabinə**

İstanbul - Yenidən təşkil edilmiş Tofiq paşa Kabinəsi istefa verdi. Yeni Kabinə təşkil edilmişdir. Damad Fərid paşa Sədrəzəm [Baş nazir] və Xariciyyə naziri, Mustafa Səbri əfəndi şeyxülislam, Maliyyə naziri Tofiq paşa, Camal paşa Daxiliyyə naziri.

London - Avam Kamerasında Çörçill Vedjvuda cavab verərkən demişdir ki, Blaqoveşensk yaxınlığında müharibə edən Yaponiya qoşunlarına müavinət [kömək] etməkdən Amerika qoşunları imtina etmişdirlər. Amerika qoşunlarının komandanı demiş ki, yaponlara hücum edənlərin bolşevik deyil, rus kəndçiləri olduğu və amerikalılar rus kəndçilərinə qarşı atəş açmayacaqları üçün, yaponlara müavinət [kömək] etməmişlərdir. İngilis qoşunları həyəcanı yatırmağa dəvət edilmişlərdi. Fəqət onlar Müttəfiqlərə müavinət edəcəklərdir. Çörçill əlavə etmişdir ki, yaponlara hücum edənlər gözəl surətdə təslih edilmiş [silahlandırılmış] bolşeviklər imiş.

Paris - Klemansonun canına sui-qəsd edən Kottini Brüksel [Brüssel] müdafiə edirmiş. O, qətlə qəsd etdiyi ilə ittiham edilərək divani-hərb [hərbi məhkəmə] tərəfindən mühakimə edilmişdi. Müddəiyi-ümumi [prokuror] isbat etmişdir ki, Kottində anarxist ideyası vardır. O öz cinayətinə iftixar edirmiş. Kottin hiddətlənərək Klemansoya və burjuaziyaya hücum ilə bəyan etmişdir ki, hərgah qaçmağa müvəffəq olsaydı, ikinci dəfə Klemansoya sui-qəsd edərdi.

**Murmanda [Murmanskda]**

London - Şimali Rusiya barəsində İngiltərənin məlumati-rəsmiyyəsi. Arxangelskin 150 ağaclığında bolşeviklərin hücumu dəf edilmişdir. Düşmənlər meydani-müharibədə 57 ölü, bir çox yaralı və pulemyot buraxmışlardır.

## SÜLH ƏTRAFINDA

**Yaponiyanın sülh məramnaməsi**

Bu vaxta qədər sükut ixtiyar edən Yaponiya nümayəndələri Markiz Okuma tərəfindən tərtib verilən sülh məramnamələrini Sülh Konfransına təqdim etmişlərdir.

1) Balkan və Afrika müstəmləkələri məsələlərində Yaponiya; İngiltərə, Fransa və Amerika ilə həmrəydir.

2) Almaniya və Rusiyaya gələcəkdə olan əlaqəyə gəldikdə, Yaponiya Müttəfiqlərin hərəkatına müvafiqət edəcəkdir [uyğun hərəkət edəcəkdir].

3) Düşmənlərdən zərər almaq və təxribatı emar [bərpa] etmək məsələlərinin həllini Yaponiya Sülh Konfransına vagüzar edir [tapşırır].

4) Samoa cəzayiri [adaları] məsələsi İngiltərə və Amerika ilə birlikdə həll edilməli. Bu məsələ həllində Bəhri-mühiti-kəbirdə [Sakit okeanda] Almaniyanı üssülhərəkədən [bazadan] məhrum etmək əsas tutulmalıdır.

5) Novaya Qvineya [Yeni Qvineya] Avstraliyaya keçməlidir.

6) Hal-hazırda Yaponiya tərəfindən işğal edilən Marşall və Karolin cəzirələrinin [adalarının] Yaponiya üçün heç bir əhəmiyyəti yoxsa da, fəqət bu cəzirələrin nemeslər əlində olması Yaponiya üçün xətrəli [təhlükəli] olardı. Bu cəzirələrin üçüncü bir dövlətə verilməsinə əsas olmadığından, Yaponiya təvəqqe edir ki, bu cəzirələr Yaponiyanın kontrolluğu altında olsun.

7) Çindao, Jicjao, Sedasao boğazı, hakəza Tyanan dəmiryolu Yaponiyaya keçməlidir. Bunlar almanlar tərəfindən müharibədən əvvəl alınmışdı.

8) Sibiryada qanunu saxlamaq kimi məsələdə Yaponiya Müttəfiqlərlə sazişə girir, fəqət heç bir dövlətin orada imtiyaz almağa səsi olmamalıdır.

9) Çində azad ticarət prinsipi saxlanmalıdır. Çünki Yaponiya hər bir dövlətdən artıq Əqsayi-Şərqdə [Uzaq Şərqdə] sülhün saxlanmasından maraqlanır.

Paris - İtaliya sülh heyətinin sədri Krispi məlum eyləmişdir ki, İtaliya ilə Serbiya arasında olan ixtilafın fövqəladə bir məclisdə müzakirə edilməsinə İtaliya bir səbəb görməyir. İtaliya nümayəndələri Sülh Konfransında məlum etmişlər ki, İtaliya Hökuməti əcnəbilərin hökmündən imtina edir.

**Dalmaçya məsələsi**

Paris - İtaliya Hökumətinin məlumatına nəzərən, Dalmaçya [Dalmatiya] kənarlarının Serbiyaya verilməsi hərbi nöqteyi-nəzərlə İtaliya üçün xətrəli [təhlükəli] olardı. Hərgah, Serbiya oralarda istehkam yapmayacağına riza göstərsəydi, İtaliya bəlkə də Dalmaçyanın Serbiyaya verilməsinə razı olardı. Serblər də öz tərəflərindən tələb edirlər ki, Adriatik dənizi boyunda olan istehkamlarını məhv etsin.

Paris - Havas ajansı xəbər verir ki, Vilsona müalicə edən doktor, Vilsona məsləhət görmüşdür uzun müddət istirahətə çəkilsin. Vilson çox yorğundur. Bu gün polkovnik Hauz Dördlər Şurasında onun yerini işğal etmişdir [yerini tutmuşdur].

London - Bu gün ingilis kralı general-leytenant U[ilyam] R[eyn] Marşalı hüzuruna qəbul eyləmişdir. Bu gün də Ağa Xan Parisdən Londona varid olmuşdur. Mumaileyh [adı çəkilən şəxs] mövqifdə [stansiyada] Bikaner tərəfindən istiqbal edilmişdir [qarşılanmışdır].

Helsinqforsdan [Helsinkidən] "Deyli meyl" qəzetəsinə xəbər verilir ki, Bolşevik Hökuməti sülh xüsusunda yeni təklifdə bulunmaq istəyir. Belə ki, Müttəfiqlər[ə] Amudərya çayı ilə Qara dənizi birləşdirmək üçün imtiyaz vermək istəyir. Hakəza [habelə], Türküstanda pambıq istehsalı üçün də Müttəfiqlərə imtiyaz təklif edəcəklərdir.

## QƏZETƏLƏRDƏN

**Cəmiyyəti-Əqvam və bolşevizm**

Bolşevizmi qəti surətdə məhv etməkdən ötrü Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] beynəlmiləl bir diktatura təşkil edilməsi layihəsi daxil edilmişdir.

**Kottinin əfvi**

Klemansonun canına sui-qəsd edən anarxist Kottin Klemansonun əmrinə görə əfv edilmişdir.

**İspaniyada nazirə sui-qəsd**

İspaniya paytaxtı Madrid şəhərində İspaniya Xariciyyə naziri canına sui-qəsd edilmişdir. Nazir salamat qalmışdır. 10 nəfər ölüb, 5-i yaralanmışdır.

**Kerenskinin üzə çıxması**

Kerenski hökumətinin sabiq vəzirlərindən [Mixail İvanoviç] Tereşenko və [Aleksandr İvanoviç] Konovalov Klemanso və Pişon ilə müşavirədə bulunmuşlardır. Müşavirədə Kerenskinin üzə çıxarılmasından bəhs edilmişdir. Kerenski Parisdən Londona əzimət etmişdir [yola düşmüşdür].

**İzmir hadisəsi**

İzmirdən alınan axırıncı qəzetələr yunanlıların bihəyalığından və naxallığından [sırtıqlığından] nəşət etmiş [törəmiş] İzmir hadisəsini böylə təsvir edirlər:

Qəzetələrin verdiyi məlumata görə, hadisə böylə olmuşdur: Restoranların birisində kef edən yunanlılar atmağa başlayarlar. Polis məmuru Həmzə əfəndi öz vəzifəsini ifa edərək yunanlıların eyş etdiyi [yeyib-içdiyi] restorana atışmanı təhqiqə gəlir. Yunanlılar Həmzə əfəndiyə atəş açırlar. Qarğaşalıqda polis nəfərlərindən birisi çiynindən yaralanır. Həmzə əfəndi özünə kömək çağırmaq üçün havaya bir neçə güllə atır. Bu atışma səsinə 4 min nəfər yunanlılar yığışıb polis məmurlarını əhatə edirlər. Həmzə əfəndi on güllə ilə buradaca qətl edilir. Məhəlli-hadisəyə [hadisə yerinə] dərhal qoşun gəlib əhalinin mümaniətinə [maneçiliyinə] baxmayaraq onları dağıdır. Hərçənd ki, məhəlli [yerli] yunan qəzetələri buna başqa bir rəng vermək istəmişlərsə də, fəqət müvəffəq olmamışlar. Çünki yunanlıların günahı məlum idi. Polisi əhatə edən əhali tələfatsız pərakəndə edilmişlərdir. Bu hadisələr münasibətilə şəhərin türk komandanı ümum qəzetələrdə hadisəni olduğu kimi təsvir eyləmiş və yalan xəbərlər nəşr edən "Kvilio" nam [adlı] yunan qəzetəsi daimi surətdə qapanmışdır.

## AXISKA UYEZDİNDƏ

Axıska dəstəsi naçalniki general Kvinitadzenin verdiyi məlumata görə, müsəlmanlar yenə təzədən Potsxov rayonundan sərhədi keçib düşmənanə hərəkata başlamışlar. Aprelin 4-də müsəlləh [silahlı] müsəlmanlar dağdan enib Axıska uyezdində [qəzasında] olan Xanə kəndini işğal etmişlərdir. Axıska dəstəsi əsgərləri aprelin 6-da hücuma keçməyə məcbur olmuşlardır. Düşməni sıxışdırmaqla bərabər Carsiman, Çilvan və Pətrəvyan kəndləri xəttini işğal etmişlərdir. 60-a qədər əsir alınmışdır. Ərdəhan əsgərlərinin yaxınlaşması kəşf edilmişdir. Aprelin 7-də Gürcüstan əsgərləri cənuba tərəf irəliləyib Yeniköy, Çançax, Sakira kəndlərini zəbt etmişlər. Yeniköy rayonunda 3 top alınmışdır. Əsgərlərin başçısı Musakiyev Diqurda milli əhali tərəfindən qətl edilmişdir. Əsgərlər buna qisasən Diqur bəylərindən Əhməd bəy Abaşidzeni və onun oğlunu öldürmüşlərdir. Gürcüstan əsgərlərinin hücumu davam edir.

## DAĞISTAN ƏHVALI

**Mütarikə konfransı**

Aldığımız məlumata görə, srağagün aprelin 11-də Dağıstan Hökuməti nümayəndələri ilə general Denikinin arasında sülh mütarikəsi [atəşkəs] konfransının birinci iclası vaqe olmuşdur. İclasda Müttəfiq dövlətlər nümayəndələri dəxi, İngiltərə generalı Briks başda olmaq üzərə iştirak edirlər.

**Dağıstan sülh heyəti**

İstanbuldan alınan məlumata görə, Cibaliyyun [Dağlılar] İttifaqı Cümhuriyyətinin sülh heyəti martın 16-da İstanbuldan Parisə hərəkət və əzimət etmişdir [yola düşmüşdür].

**"Qurultay"**

Aprelin 4-də general Lyaxov tərəfindən osetinlərin syezdi "Qurultay" dəvət edilmişdir. Syezddə osetinlərin irti- capərəstlərindən cüzi bir hissə ancaq iştirak edir. Bugünlərdə general Lyaxov kəndisi dəxi həman "Qurultayda" iştirak üçün Qroznıya hərəkət etmişdir.

**General Denikin Petrovska gələcəkmiş**

"Znamya truda" qəzetəsi yazır ki, bugünlərdə Petrovskdan gələn bir nəfərin rəvayətinə görə, Könüllü ordu Baş komandanı general Denikinin Petrovska gələcəyi gözlənirmiş. Denikinin Petrovska gəlməsi Könüllü ordu nümayəndələrinin Dağıstan Hökuməti ilə Dağıstan daxilində müharibə hərəkatının qət edilməsi [dayandırılması] məsələsi haqqında müzakirədə bulunacaqları ilə əlaqədardır.

**Dağıstan nümayəndələri**

Könüllü ordu ilə olan münasibatı aşkar etməkdən ötrü bu yaxınlarda Terskdən Yekaterinodara Dağıstan heyəti gəlmişdir. General Lyaxov ilə müzakirədə bulunmaqdan ötrü məzkur [deyilən] heyət Pyatiqorska göndərilmişdir. Heyət Pyatiqorska azim olanda [yola düşəndə] general Denikinə bir müxtirə [yazılı qeyd; nota] vermişdir. Bu müxtirədə Dağıstan Hökuməti tarixi, bolşeviklərlə mübarizə əhvalatı və Dağıstan millətlərinin Müttəfiqlərə olan münasibatı və qeyri əhvalatlar yazılmışdır.

## TÜRKİYƏ XƏBƏRLƏRİ

**İstanbul türklərindir**

İttilaati-xüsusiyyəmizə [aldığımız xüsusi xəbərlərə] görə, İstanbulun bir türk mədinəsi [şəhəri] və türk paytaxtı olaraq buraxılmasına Paris Sülh Konfransınca qərar verilmişdir. Bu qərar sülh müqəddəratı ilə bərabər bu ayın 10-da hökumətimizə təbliğ ediləcək və bu təbliğ tarixindən etibarən sülh əqd edilmiş [imzalanmış] olacaqdır.

**Rumların vahi müddəəyatı [əsassız iddiaları]**

Venizelos təhriki ilə İstanbul rumları hər növlə intriqalar çıxarıb İstanbulun Yunanıstana verilməsi yolunda hərəkat çıxarırlar. Bu hərəkata bir nümunə olmaq üzrə İstanbuldakı rum kəlisalarında [kilsələrində] alınan qərarın bir nüsxəsini İstanbul qəzetələrindən nəqlən aşağıya dərc ediriz.

Martın 8-də rum kəlisalarında qiraət edilən qərarnamənin surəti-mütərcəməsi [tərcümə edilmiş surəti] şudur:

*"İstanbul və həvalisi[nin] [ətrafının] rum əhalisi hənuz əsarət altında bulunduğu cəhətlə sərbəstcə ictima edə biləcəyi [yığışa biləcəyi] yeganə mərakizi [mərkəzləri] təşkil edən məbədlərində toplanmışlar və hürriyyətpərvər dövlətlərin müzəffəriyyətinin [qalibiyyətinin] nəticəsi olaraq təzahür edən millətlərin kəndi müqəddəratını və istədikləri tərzi-idarəni təyin xüsusunda sərbəst bulunmaları qəziyyəsini kəndilərinə də təşmil [şamil] edərək, əsarət altında bulunduğu halda belə bir amili-təməddün [mədəniyyət amili, mədəniyyətin hərəkətverici qüvvəsi] olduğu bu ərazi üzərində 25 əsrdən bəri haiz [sahib] olduğu hüququ elan etmişlərdir.*

*Hər xüsusda yüksək bir mövqedə bulunan və son beş əsrin zərfində bütün həyatı işgəncə və məzalim [zülmlər] silsiləsi təşkil edən bir millətin qeyri-qabili-təməddün [mədəniləşmə qabiliyyətinə sahib olmayan] zalımların barbar boyunduruğu altında daha ziyadə qalmasına nə hürriyyətpərvər Etilaf [Antanta] dövlətləri, nə də aləmi-mədəniyyət təhəmmül edəmməyəcəyindən [dözməyəcəyindən] əmin olan və Hərbi-ümuminin [Dünya müharibəsinin] daha bidayətindən [başlanğıcından] bəri Etilaf dövlətlərinin əhraranə [hürriyyətpərvər] prinsiplərini iltizam edən [qəbul edən, öhdəsinə götürən] və bundan dolayı türklər tərəfindən daha ziyadə şiddətlə təqibata düçar olan bütün Türkiyə rumluğu hissiyyat və amali-ümumiyyəsinə tərcüman olaraq təmayülati-milliyyəsinin [milli təmayüllərinin] kamilən təsviyəsi [tamamən həll edilməsi] haqqındakı layətəzəlzəl [sarsılmaz] arzusunu elan və ana vətəni olan Yunanıstana iltihaqı [birləşməsi] atidə [gələcəkdə] inkişafı-təbiisinin təmini və Şərqi-qəribdə [Yaxın Şərqdə] yeni hərc-mərclərin mən'i [önlənməsi] üçün yeganə bir əsasimətin [möhkəm təməl] ədd [hesab] edərək, başqa dürlü tərzi-təsviyəni [başqa həll yolunu] bütün qüvvəti ilə rədd etməyə əzm etmiş olduğunu bəyan və ən yüksək məqami-millisi [milli kürsüsü] olan patrikxanadan işbu qərarnamənin Sülh Konfransında İngiltərə, Fransa, İtaliya, Amerika və yunan müməssillərinə [nümayəndələrinə] təbliğini rica eylər."*

**Ərəb hökuməti**

Məlum olduğu üzrə, böyük dövlətlərin nümayəndələrindən mürəkkəb [ibarət] olmaq üzrə Sülh Konfransında beş dövlətin ikişər [hərəsindən iki] nümayəndəsindən ibarət bir Onlar Məclisi təşkil olunmuşdur. Paris qəzetələrində oxunduğuna görə, Onlar Məclisi Əmir Faysalın Ərəbistana mütəəlliq [dair] məlumatını istema etmişdir [dinləmişdir]. Əmir parlaq əlbiseyi-milliyyəsini labis [milli libasını geymiş] olduğu halda tələbnaməsini məclisə təqdim etmiş və izahati-şifahiyyəsini [şifahi izahını] ərəbcə olaraq vermişdir. Bu izahat ingilis miralayı Laurens tərəfindən ingiliscəyə tərcümə edilmişdir. Hicaz mürəxxəsi [nümayəndəsi] mütaliatını [qiymətləndirmələrini] pək vasi [xeyli geniş] miqyasda tutmuşdur. Bütün ərəblərin müməssili [nümayəndəsi] sifətilə ortaya atdığı prinsiplər bir xeyli məsaili təşviş edəcək [bir çox məsələləri qarışdıracaq] mahiyyətdədir. Əmir İskəndərundan Diyarbəkirə və oradan Bəhri-mühiti-Hindiyə [Hind okeanına] qədər imtidad edən [uzanan] bütün Asiya həvalisində ərəbcə təkəllüm edən [danışan] bilümum [bütün] millətlərin Cəmiyyəti-Əqvamın kəfaləti təhtində [Millətlər Cəmiyyətinin zəmanəti ilə] bir hökuməti-müstəqilə halına vəzini [müstəqil hökumət halına gətirilməsini] tələb etmişdir.

**Orta Asiyada İslam Federasyonu**

İstanbul qəzetələrində görülmüşdür:

*"Bombeydən 11 şubat tarixi ilə "Tayms" qəzetəsinə çəkilən bir teleqrafnamədə əzcümlə [o cümlədən] atidəki [aşağıdakı] məlumat verilir:*

*Buxara əmiri Kabil şəhərinə və Rusiyaya bir taqım heyəti-mürəxxəsə [nümayəndə heyəti] göndərmişdir.*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 13 aprel (Bazar günü) tarixli 156-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

*Asiyayi-vüsta [Orta Asiya] xanları tərəfindən vasi [geniş] səlahiyyətlərlə təchiz olunan digər bəzi heyəti-mürəxxəsənin əlyövm [hal-hazırda] Kabildə bulunması Buxara heyətinin keyfiyyəti-ezamına [ezamiyyətinə] bir qat daha böyük bir əhəmiyyət verməkdədir. Anlaşıldığına görə, bunların səbəb və məqsədi-ezamı Asiyayi-vüsta müsəlman müluku [hakimləri, hökmdarları] arasında bir ittifaq vücuda gətirməkdir. Əfqanıstan əmiri Buxara ordusu ilə idarəsinin tənsiq və islahına [qaydaya salınmasına və yaxşılaşdırılmasına] müzahirət [köməklik] edəcəyinə dair Buxara əmirinə vədlərdə bulunmuşdur. Digər tərəfdən, müsirrən [təkidlə] dəvəran edən [dolaşan, gəzən] bir rəvayətə nəzərən ittifaqi-cədidin [təzə ittifaqın] bir növ zəmanı [zamini] olmaq üzrə Əfqanıstan əmirinin oğullarından biri də Buxara əmirinin qızlarından birini alacaqdır.*

*Osmanlı imperatorluğunun son fəlakətlərinə rəğmən əfqanlılar ilə hüdud qəbaili [sərhəd qəbilələri] Zati-şahanəni əlan [hal-hazırda] xəlifeyi-islamiyan [müsəlmanların xəlifəsi] olaraq tanıyırlar. Türkiyənin məqasiməyə uğradılması [bölüşdürülməsi] isə fövqəladə hiddət və infiallarını mövcib olacaqdır [hiddət və qəzəblərinə səbəb olacaqdır]."*

* * *

13 şubat tarixli "Tayms" qəzetəsi Asiyayi-vüsta hökuməti-müttəhideyi-mənzuməsinə [qurulmaqda olan birləşmiş Orta Asiya hökumətinə] həsr etdiyi bir baş məqalədə şu yolda bəsti-mütaliə edir [fikirlərini meydana qoyur]:

*"Asiyayi-mərkəzi islam müluku [Orta Asiyanın müsəlman hökmdarları] arasında bir ittihad və ittifaq təsisi təsəvvürünə dair Bombey müxabirimizdən [müxbirimizdən] aldığımız məlumat son zamanlarda bu məsələyə dair dəvəran edən rəvayəti təyid edəcək [təsdiqləyəcək] bir mahiyyətdədir. Bu təsəvvürün başlıca amil və mürəvvici [əsas təşəbbüskarı, rəvac verəni] Əfqanıstan əmiridir. Anlaşılan, müşarünileyh [adı çəkilən şəxs], Buxara əmiri ilə bir ittifaq əqd etmək [imzalamaq] üzrə bulunur. Buxara xanının bir heyəti-mürəxxəsəsi ilə Asiyayi-vüstadakı daha kiçik müsəlman mülukunun [hakimlərinin] mümessilləri əlyövm Kabil şəhərində bulunurlar. Əmir Həbibulla Buxara ordusu ilə idarəsinin səlahı [yaxşılığı, asayişi] üçün müqtəzi müavinəti [lazım olan köməyi] göstərməyə hazır imiş. Ehtimal ki, bu yardım bolşevizmə qarşı olacaqdır. Məmafih [bununla belə], şurasını unutmamaq lazım ki, Əfqanıstan əmirləri ilə Asiyayi-mərkəzi müluki-islamiyyəsi arasında daima pək sıxı və dostanə münasibat cərəyan eyləmiş, əmir Həbibulla pədəri [atası] Səmərqənddə mənfi [sürgündə] ikən burada doğ[ul]muşdur. Asiyayi-mərkəzidə bir islam hökuməti-müttəhidəsi zümrəsinin [qrupunun] təşkili İngiltərə üçün naxoş bir şey deyildir. Bu mənzumə şübhəsiz Əfqanıstanın nüfuz və təsiri altında bulunacaqdır. Əmir Həbibulla isə İngiltərəyə və Hindistan hökumətinə qarşı sədaqətindən heç bir zaman inhiraf etmədi [dönmədi]. Müşarünileyh [adı çəkilən şəxs] alman və türk mühərriklərinin [təhrik edicilərin, qızışdırıcıların] qandırıcı təklifatını [aldadıcı təkliflərini] daima rədd eylədi. Vaqeən [həqiqətən də] əfqan böyüklərinin fəsadçı və qarışdırıcı qismini daireyi-etidalda [təmkin dairəsində] tutmaq ötədən bəri güc bir şeydir. Fəqət buna müqabil əmiri-Əfqanıstan qənaət və sədaqətində heç bir zaman zərrə qədər bir əsəri-tərəddüd göstərmədi. Etilafın [Antantanın] zəfəri əmir Həbi-bullanın məsləyindəki isabəti təyid və təsdiq eyləmişdir. Müşarünileyhin mövqeyi heç bir zaman şimdiki qədər əmin və qüvvətli deyildi.*

*Asiyayi-mərkəzi mənzumeyi-müttəhidəsinin turançılıq məsləki ilə əlaqədar olacağını fərz və qəbul etmək üçün ortada bir səbəb yoxdur. Lakin eyni zamanda gərək Asiyayi-mərkəzi və gərək Hindistan müsəlmanları arasında Türkiyəyə qarşı pək qüvvətli hüsn-təvəccöh və təmayül mövcuddur. Müsəlman əfkari-ümumiyyəsinin [ictimai rəyinin] bu istiqamət və mətufiyyəti [yönəlməsi] Paris Konfransınca hər halda nəzəri-etibara alınmaq lazım gələn mühüm bir cərəyandır."*

## CÜMƏ GÜNKÜ MÜHÜM XƏBƏRLƏR

**Odessanın işğalı**

Kiyev (radio xəbəri) - Odessa sortirovoçnı mövqif [tərtibat stansiyası] bolşeviklər tərəfindən işğal edilmişdir. Bizim hissələr iskələdə duran dava gəmiləri dəstəsi ilə müharibə etmişdir. Odessa iskələsində Müttəfiqlərin gəmiləri vardır. Düşmənlər Ağkirmana ricət etmişlərdir [geri çəkilmişlər].

- İngilis əmələləri tələb edirlər ki, Rusiyada olan ingilis qoşunlarını İngiltərə geri dəvət eyləsin.

**Amerikada bolşeviklər**

London - Nyu-Yorkda polis Rus Əmələ-Kəndçi İttifaqı mənzilini təftiş edərək 200 nəfər bolşevikləri həbs eyləmişdir. Bunlardan bolşevizmə aid bir çox kitablar tapılmışdır. Rus dilində yazılan intibahnamələrdə [təbliğat vərəqələrində] bolşeviklər Amerika hökumətini düşürməyi təklif edirlər.

- Vyanadan xəbər verirlər ki, Almaniya-Avstriya Şurası Avstriyanın nemeslərlə məskun olan hissəsinin Almaniyaya mülhəq olması [birləşməsi] qanun layihəsini qəbul eyləmişdir.

**Dağıstanda**

Aprelin 2 və 3-də Alxan-Yurt, Kuları və Berdıkel kəndləri Könüllülər tərəfindən əhatə edilmişdi. Alxan-Yurt iki həftəlik mühasirədən sonra büsbütün yandırılmışdır. Digər iki kənd isə çox mütəzərrir olmuşdur [ziyan çəkmişdir]. Alxan-Yurt kəndi əhalisi başqa yerə köçürülmüşdür. Alxan-Yurtda 400 nəfər şəhidimiz vardır. Kənddə qalmış olan həştad nəfər arvad-uşaq kazaklar tərəfindən amansız bir surətdə qətl edilmişlərdir. Aprelin 4-də Ustar-Qardoy altında düşmənlərdən min nəfər qətl edilmişdir. Könüllü qoşunlara komandanlıq edən general Şatilov qıçından ağır surətdə yaralanmışdır.

**Qudermesin işğalı**

Axırıncı məlumata görə, Könüllülər qızğın müharibədən sonra Qudermes mövqifini [stansiyasını] işğal etmişlərdir.

**Sülh danışığı**

Aprelin 7-də Könüllü ordusu Dağıstan Hökumətinə dəvətnamə göndərərək sülh barəsində danışmaq üçün aprelin 10-da Qroznıya gəlmələrini xahiş etmişlərdir. Bu şuraya general Denikin və Müttəfiq dövlətlərin nümayəndələri gələcəkdirlər.

- Dağıstan oblastı, Xasavyurt okruqu, Çeçen oblastı və İnquş dairəsi idareyi-əsgəriyyə [hərbi rejim] altına alınmışdır.
- Dağıstanda ümumi səfərbərlik elan edilmişdir. Çeçenistan və İnquşistandan qoşunlar cəm edilmişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

* Ədliyyə nazirinin Xüsusi təftiş və istintaq komisyonu əzası [üzvü] təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bakı mirovoy sudyası İsmayıl bəy Sultanov ilə sabiq Tiflis Məhkəmə Palatası sədri Yuri Dmitriyeviç Rusanovu həman komisyon əzalığına təyin etməli. Bir yerə göndərdikdə xidmətdə olan həman komisyon əzasına gündəlik 100 rublə, xidmətdə olmayanlara gündəlik 140 rublə verməli.

* Ticarət və Sənaye nazirinin dövləti [dövlətə məxsus] mərmi zavodu fəhlələrinə mart ayının ikinci nisfi [ikinci yarısı] məvacibi üçün 50 min rublə təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan borc təriqi [yolu] ilə 50 min rublə buraxılsın. Fəqət həman məbləğin ən yaxın zamanda geri verilməsi şərtdir.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

* Keçən günkü nömrəmizdə Quliyev dəyirmanı fəhlələrinin tələbat verərək tətil etmələrini və Məsai Nəzarəti tərəfindən Rəhim Hüseynzadənin oraya göndərilməsini qareinə [oxuculara] xəbər vermişdik. Məzkur [adı çəkilən] Məsai Nəzarəti [Əmək Nazirliyi] nümayəndəsinin işə müdaxiləsi ilə tələbat dəyirman müdiriyyəti tərəfindən qəbul edildiyindən, dəyirman fəhlələri işə başlamışlardır.

* Tağıyev Fabrikası Fəhlələri İttifaqı Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, fabrika müdiriyyəti müştərək müqavilənaməni [kollektiv müqaviləni] qəbul etmək istəməmişdir. Bundan dolayı fəhlələr miyanında [arasında] ixtilaf baş verməkdədir. Məsai Nəzarəti Baş fabrika müfəttişinə müraciətən təklif etmişdir ki, fəhlə və Fabrika müdiriyyəti nümayəndələri və Məsai Nəzarəti nümayəndəsindən mürəkkəb [ibarət] bir komisyon təşkil etsin ki, fabrikada müştərək müqavilənaməni təhqiq etsinlər.

* Məsai Nəzarəti Biləcəri dairəsi dəmiryolları xidmətçilərinə elam etmişdir [bildirmişdir] ki, Nəzarət Moskva dekreti ilə əlavə almayan xidmətçilərə əlavəni vermək üçün Vükəla Şurası [Nazirlər Kabineti] nəzdində təşəbbüsatda bulunmuşdur. Binaənileyh [ona görə], Nəzarət təklif etmişdir ki, fəhlələr çıxışdan özlərini saxlasınlar. Zira ən yaxın zamanda məsələ müzakirə ediləcəkdir.

## MİLLİ DİLİMİZ

Yer üzündə yaşayan hər millətin milli dili, milli lisanı, milli adatı [adətləri] olduğu hər kəscə bəllidir. Hər millət isə kəndi dili ilə qonuşur. Təbiidir ki, bu gün bir rus, yaxud bir alman kəndi dilini buraxaraq başqa bir dil ilə kəndi qardaşı və milləti ilə əsla qonuşmaz. Çünki millət və milliyyət yalnız dil ilə ayrılar.

Əski hökumət zamanında rus dili cəbri [məcburi] olaraq hər yerdə oxudulurdu. Buna binaən [buna görə] də hər kəs rus dilini öyrənməyə çalışırdı. Lakin inqilab çıxdı, əski zülüm, əski hökumət ortalıqdan qaldırıldı. Hər millət kəndi hüququnu tanımağa başladı. Odur ki, Rusiyada bir neçə hökumət əmələ gəldi. Bunlardan birisi də türk və islam hökumətindən ibarət bugünkü Azərbaycanımızdır. Rusiyada mövcud hər millət kəndi istiqlaliyyətini elan etdikdə, Azərbaycan da bu yolda geri qalmadı. Üçrəngli sancağını yüksəltdi və yüksəldəcəkdir. Deməк, Azərbaycan bütün dünyaya elan etdi ki, artıq o hürr yaşayacaq və kimsənin himayəsi altına girməyəcəkdir.

Azərbaycan kimi başqa millətlər də müstəqil oldular. Bütün dairələri, məktəbləri milliləşdirdilər. Azərbaycan da milliləşdi, lakin o qədər yox. Bu gün hökumət dairələrinin çoxlarında rus dili yenə davam edir. Ona qarışmayız. Çünki bir səbəb var ki, öylə də olmuş. Lakin Gəncədə bazar başına çıxılarsa, bir çox edadinin yuxarı sinif tələbələrinin kəndi türk və islam qardaşları ilə rusca qonuşduqları görülür. Keçmiş zamanlarda rusca qonuşulardı, çünki o zaman rusca rəsmi bir dil idi. Lakin şimdi, əcəba neyçün rusca qonuşalım? Şimdi ki, rəsmi dil türkcədir. Bizim də kəndi dilimiz türkcədir. Rusca qonuşaraq neyçün kəndi dilimizi unuturuz? Neyçün kəndi dilimizi təhqir ediriz?

Gəncədə təşkil olunmuş Gəncə vilayəti Türk Müəllimlər İttifaqı növbəti iclaslarının birində bütün türk müəllimlərinin bir-biri ilə, yaxud kəndi amirləri ilə hər zaman türkcə müxabirədə [yazışmada] bulunacaqları təhti-qərara alındı.

Əlbəttə, dilimizi yüksəltmək, tərəqqi etdirmək əhalinin ziyalı qismindən asılıdır. Bu iş, bu vəzifə müəllim və tələbələrimizdən asılıdır. Bir dükançı türkcə qonuşarkən bir türk tələbəsinin, yaxud müəlliminin arxadaşı ilə rusca qonuşması eyib deyilmi? Bu gün fransız lisanı ümumi bir lisan hökmünü almışdır. Neyçün əcəba? Çünki fransızlar mədəni bir millət olduqları kimi, çalışmaları sayəsində dillərini də gözəl bir rəngə qoyaraq zənginləşdirmişlər. Buna baxılarsa, türk dili də fəna deyildir. Türk dili söyləyişdə, nəfislikdə başqa dillərdən geri qalmamışdır. Çalışalım türkcə qonuşalım və türkcə yazalım ki, 80 milyonluq bir türk millətinin dili də geridə qalmasın, kəndisinin varlığını isbat etsin.

*Müəllim Davud*

## ƏCZAXANA TƏHLÜKƏSİ

Malışev familiyalı bir şəxsin şikayətinə görə, mart ayının 20-də Səhiyyə Nəzarəti Nikolay küçəsindəki sabiq "Zumirov" əczaxanasını üç yüz rublə ilə cərimələmişdir. Cərimənin səbəbi isə doktor Şahnəzərovun nüsxəsi ilə həman əczaxanadan tələb olunmuş əczanın əvəzinə saxta və təbdil olunmuş [dəyişdirilmiş] qeyri-həqiqi əczanın buraxılmasıdır. Bunu təhqiq etmək üçün qayırılmış ədviyəni [dərmanı] şəhər emalatxanasında təhlil edirlər və məlum olur ki, doktorun yazdığı ədviyə əvəzinə tamamən başqa bir şey vermişlər. İştə bu ikinci əczaxanadır ki, Səhiyyə Nəzarəti tərəfindən cərimələnir. Birinci əczaxananın günahı başqa idi, hökumət qoyduğu nırxdan artıq pul tələb olunmuşdu. Bu iki vəqənin hangi olursa-olsun, təhqiq və ya təftiş olmayınca əhali üçün kəşf olunmayacaq və üstüörtülü məsələlərdir ki, camaatı həmişə həyəcan və təşvişdə bulundurur.

Filhəqiqə [doğrudan da], ədviyənin həqiqi və ya qeyri-həqiqi olduğunu isbat etmək üçün həmişə təhlil üsuluna ehtiyac vardır ki, bu da hər saatda, hər dəqiqədə mümkün olan şeylərdən deyil. Doğrudan da, hangi əqli-səlim [məntiq] sahibi naxoşunu əzrayılın pəncəsində buraxaraq ədviyənin təhlili üçün emalatxanalara yüyürəcəkdir? Şəfa üçünmü, yoxsa həqiqətin kəşfi dalıncamı naxoş sahibi çabalasın? Ən ağır və çarəsiz halətlərdən biri də budur ki, insanı mat və məbhut [çaşqın, matməəttəl] buraxır. Qoy birə-beş, birə-on nırxdan artıq tələb etsinlər. Eybi yoxdur. Böylə qanunsuzluğa hər kəs razı ola bilər, lakin ədviyənin təbdilinə hər kəs razı olmayacaqdır. Hərarətini söndürməyə ədviyəsinə möhtac qalmış bir naxoşa bərəks [əksinə] hərarətini qovzayan [qaldıran] bir dərman verilərsə, şəkk yoxdur ki, bu təbdilat [dəyişiklik] biçarə naxoşu fövrən [dərhal] öldürəcəkdir. Əczaxanalarda ənvai [cür-bəcür] zəhərlər mövcuddur ki, bunlardan kimsəyə şəfa hasil olduğu kimi, kimsəyə də dərhal ölüm tabutu hazır olur.

Söz yoxdur ki, dərmanlar dəyişik verilməzsə, bir bu qədər də səhv və xətalar baş verməz. Fərz edəlim ki, bir şəxs şərbətə, yaxud xörəyə bir zəhər daxil edib, onunla düşmənini tələf etmək istəmişdir. Böylə bir şəxs cani və qatillərə məhsub olaraq [sayılaraq] təhti-məsuliyyətə [məsuliyyət altına] alınmazmı? Ola bilsin ki, əcza təbdilatından Malışevin naxoşuna heç bir sədəmə [ziyan] toxunmamışdır. Lakin bununla əczaxana sahibi məsuliyyətdən azad olunammaz. Qatilliyə müqabil [bərabər] bir hərəkətdə müttəhim olmuş şəxsin cəzası 300 manatlıq bir cərimə ilə ölçülməz. Böylə caninin karastısı [iş alətləri] gərək əlindən alınsın və özü də tövqif olunsun [tutulsun]. Onun karastısı ki əczaxanadan ibarətdir, əlindən alınmamışdır. Binaənileyh [ona görə], ümid yoxdur ki, bu cənab adətkərdə [adət etdiyi] qəbahətindən əl çəkə bilsin. Buna biz adətkərdə adı verməkdə bir sübutumuz da budur ki, şəhərin məşhur doktorlarından biri Nikolay əczaxanasının emalından şübhələnərək sair əczaxanalara müraciət etməyi məsləhət görürdü. Böylə olan surətdə həman əczaxana gərək tamamən qapanılsın. Əvəzinə bir hökumət əczaxanası açılsın. Bu da mümkün olmadığı surətdə, qoy Nikolay küçəsində heç əczaxana olmasın. Beş qədəm uzağa getməklə əhalinin halına bir o qədər də təfavüt etməz. Lakin bir ağanın mənfəəti-şəxsiyyəsi üçün yüzlərcə naxoşları vaxtsız qəbiristana göndərmək böyük bir cəlladlıqdır ki, bunu Səhiyyə Nəzarəti gərək imdiyə qədər düşünəydi.

Kim bilir ki, sair əczaxanalar nə kimi hərəkatda bulunurlar? Hangi dəlillə camaat əmin olsun ki, sair əczaxanalarda təbədüllat oyunu yapılmayır? Ta bu əczaxanalar hökumət əlinə keçməzsə, o vaxta qədər istənilən əminlik də hasil olmaz. Bari, bir dənə hökumət əczaxanası olaydı. Sairləri ehtiyatkaranə hərəkət edərdilər.

Təəccüb burasıdır ki, bir vaxt əczaxana sahibləri ilə mübarizəyə qalxan əczaçılar onların hər növ eyib və qüsurlarını qəzetələrdə yazırdılar. Amma bu gün sakitcə dayanıb sahiblərinin hərəkətlərindən heç bir şey xəbər verməyirlər. Səbəbi də budur ki, tamam xahiş və tələblərini alıb, sahibləri ilə barışmışlar. Bununla belə, biz istəməyirik buna qane olaq ki, əczaxana şagirdləri maddi ehtiyaclarının rəfi [aradan qaldırılması] ilə həqiqəti pərdələməyə qəsd bağlamışlar.

Xülasə, kim nə deyir, desin. Əhalinin mənfəti mülahizəsi ilə müttəhim əczaxana gərək qapadılsın. Əvəzinə hökumətinki açılsın, ta ki özgələrə də ibrət olsun. Buna cərimə ilə çarə olunammaz.

*Fərhad Ağazadə*

## KONFRANS

**Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibətilə**

**- 2 -**

Natiq buraya qədər olan sözünü tamamladıqdan sonra 5 dəqiqə tənəffüs edilməsini təklif etdi. Təklif fəhlənin alqışları və "Yaşasın möhtərəm müsafirimiz!" nidaları ilə qəbul edildi. Natiq də bu təqdirə, bu müsafirnəvazlığa qarşı təşəkkür və ehtiramını mütəbəssim bir çöhrə ilə reverans yaparaq iskəmləsinə çəkilib oturdu.

Rəis əfəndi məclisə xitabən: Vaxtımızı zaye etməmək istər isək, bu 5 dəqiqəlik tənəffüs müddətində şu anda Bakıdan məclisimizə təşrif edən möhtərəm Cavad bəy bizə sevincli xəbər gətirmiş, müsaidə ediniz də söyləsinlər, deyincə həp bir ağızdan "istəriz, buyursunlar" demələri üzərinə Cavad bəy milli bir ruh, atəşin bir lisan ilə qəhrəman ordumuzun paytaxtımıza kamali-ehtişam ilə girdiyini və paytaxt onları küçələr al, yaşıl, göy bayraqlar, rəngarəng xalılarla təzyin edildiyi [bəzədildiyi] halda böyük-kiçik, erkək-qadın kamali-məhəbbət və səmimiyyətlə qarşıladığını söyləyərək, bu gün tarixi-milliyyə qeyd edilməyə layiq bir gün olduğunu və keçən sənəki məhrumiyyətə qarşı bu sənəki məsudiyyətini söyləyincə, fəhlə qardaşların sürəkli alqışları ilə "Yaşasın sülh və səlaha xidmət edəcək ordumuz!" cümləsi zalı titrətdi. Bundan sonra bir-iki kişi daha bu barədə söz aldı, söylədi. Onlar da alqışlara qərq oldu.

Tənəffüs zamanı keçməkdə idi. Söz yenə mühazirə sahibinə verildi. Mühazirənin ikinci qisminə keçildi.

Möhtərəm irqdaşlar!

Yaşayış ardı-arası kəsilməyən bir güləşdən ibarətdir. O güləşdə də təbiidir ki, güclü olan yenir. Fəhlələrlə sərmayədarlar güləşi də bu növdən idi. Əvvəlcə söylədiyim kimi, bu iki ünsürdən biri, yəni sərmayədarlar dayandıqları dəhşətli bir gücə, bir hökumət gücünə istinadən bu ana qədər hər istədiklərini yapdıra gəlmişlərdi. Çox dəfələr fəhlənin tətil etməsi bir qəbahət kimi tələqqi edilmiş, onun üçün də qırbaclar, süngülər altında zorla işlədilmişlər, kapitalistlərə fəda edilmişlərdi. Bunun nümunəsini aramaq üçün uzaqlara, qərbi Avropaya qədər getməyə hacət yox. Bir qaç sənə əvvəl Rusiya imperializmi istibdadına bir dönər baxarsaq, onun canlı misallarını görməkdə heç güclük çəkməyiz. Bu haqsızlıq, bu ədalətsizlik sür-get davam edəmməzdi. Əlbəttə, o dayandıqları gücün zəiflədiyi zaman da olacaqdı. O zaman, iştə, gəldi çıxdı.

Həpimizə bəlli ki, kapitalistlərin mübarizə etdikləri yalnız fəhlə sinifi deyildir. Kəndiləri kimi digər kapitalistlər və bilxassə [xüsusilə] əcnəbi məmləkətlər kapitalistləridir. Yetişdirdikləri məhsulları, mətaları sərbəst məxrəclərdə, bazarlarda digər məmləkətlərin eyni məhsulları, mətaları ilə bir rəqabət qapısı açır. Bu rəqabət də onlara pək bahalı olur. Bu səbəbdən monopol edilmiş yerlər istərlər. Ondan ötrü də hökumətlərinə də imperializm fikrini təlqin və digər qitələr və ölkələr fəth və ilhaqını [birləşdirilməsini] tövsiyə edirlər. Bu surətlə qanlı qovğalara səbəbiyyət verirlər. Şimdiyə qədər olan qovğaların əksərisi və hələ Cahan müharibəsi bunun nəticeyi-təbiiyyəsindən başqa bir şey deyildi.

Sırası gəlmişkən, buranı bir parça izah edəlim. Qərbi Avropa millətləri kapitalistləri arasında ən irəli gedənlər ingilis kapitalistləri ilə alman kapitalistləri idi. Cahan bazarlarında və hətta İngiltərədə belə ingilis mətasına meydan oxuyan alman mətası və hələ Hamburq-Bağdad dəmir yolunun Hindistanı təhdidi ingilis imperialistlərinin uyxusunu çoxdan qaçırmışdı. Buna bir çarə, müəssir [təsirli] bir çarə aramaq lazım gəlirdi. O da Rusiya-Fransa ittifaqına yaxınlaşmaqla Almaniyanın şərqə doğru politikası önünə sədd çəkməklə olacaqdı. Bu səd də Balkanda slav millətləri ilə yapılmışdı ki, er-gec [gec-tez] qiyamət o sədd başında qopacaqdı. Nəhayət qopdu. Dünya da alt-üst oldu.

O iki millət kapitalistlərilə imperialistlərinin iqtisadi təfəvvüqündən [üstün olmaq mübarizəsindən] meydan alan bu qovğa onlar üçün həyat və məmat [həyat və ölüm, ölüm-qalım] məsələsi idi. Onun üçün var qüvvətlərini sərf etdilər. Yalnız burada əhəmiyyətlə qeyd ediləcək bir şey varsa, o da almanların qüvvətlərinə görə diplomasiləri çox zəif idi. Qüvvətlərinə güvənərək bütün cahana meydan oxumaları təshih olunur [düzəldilə bilən] xətalardan deyildi. Lakin ingilislər o durbin nəzərli [uzaqgörən] diplomatları ilə bir qaç istisnadan sərf-nəzər edilərsə, bütün cahanı kəndi tərəflərinə çəkdilər. Müvəffəqiyyətin ən böyüyü, ən qiymətlisi də bunda oldu. Xüsusən, incə bir diplomatlıqla Amerikanı, o dəmiri, kömürü, buğdası, pambığı bol və zəngin məmləkəti kəndi tərəflərinə çəkməsi taleyi-hərbin ingilis imperialistlərinə doğru üz çevirdiyi[ni] müjdələmişdi.

Uzatmayalım, müharibəni qazandılar. Fəqət bu qazanc həqiqətdə kimlərin oldu? Kapitalistlərin, imperialistlərinmi, yoxsa fəhlələrin, xalqlarınmı? Biz buna tərəddüdsüz cavab verəcəyiz. Deyəcəyiz ki, birincilərin deyil, ikincilərindir.

Avropa üfüqlərini qara buludlar qaplamağa başladığı zaman sabiq Bordo Darülfünunu professorlarından və Fransa Məclisi-Məbusanı üzvlərindən məşhur sosialist müsyö Jan Jores[in] kürsiyi-xita-bətdən ümum Avropa imperialistlərinə qarşı söylədiyi sözlər heç unudulmayacaqdır. O vaxt müsyö Jores demişdi ki:

*"Bu hərəkətinizlə bilmiş olunuz ki, kəndi quyunuzu qazırsınız. Töküləcək o məsum qanlar, heç şübhəsiz, bir inqilab, bir inqilabi-ümumi doğuracaqdır."*

O zaman söylənən bu sözlər bu gün bir həqiqət olaraq qarşımızda təcəlli etdi [meydana çıxdı]. Fəqət yazıqlar olsun ki, bütün Fransanın kəndisinə hörmət bəslədiyi bu zat sözlərini bitirmədən imperialistlər tərəfindən barbarcasına güllələndi getdi.

İlk dəfə Rusiyadan başlayan atəşi-ixtilal Rusiyanı yaxıb qovurduqdan sonra, məğlublara və daha sonra yavaş-yavaş qaliblərə də sirayət etməyə başladı. Görülür ya, qalibiyyət sərxoşluğu ilə sərxoşlanan qaliblər də çox dayana bilməyəcəklər. Əlamətləri bəlirdi [özünü göstərdi]. İngiltərə fəhləsinin təklif etdiyi üçüncü şərtin – nasionalizasiyanın [milliləşmənin] altında gizlənmiş neçə mühlik [öldürücü] zəmirlər [daxili mənalar, sirrlər] var ki, bir gün olub onlar şiddətlə kəndini göstərəcək. Amerikada ümumi tətil xəbərləri də bundan aşağı qalmayacaq. Hələ əhvali-ictimaiyyəsi [ictimai vəziyyəti] daha müsaid olan Fransa və İtaliyada sosializm, bolşevizm hərəkatı heç də durdurulammayacaq. Onun üçün nə Rusiya və nə də Almaniya, Avstriya-Macarıstan bolşevizminə qarşı tədbirlər görüləmməyir. Biləks [əksinə], onlarla uzlaşmadan başqa məqul [ağlabatan] bir yol bulunmayır.

Qəzetə xəbərlərinə görə, keçənlərdə Lloyd Corc, Vilson, Klemanso, Orlando cənablarının Xariciyyə nazirlərini belə iştirakdan mən edərək [kənarlaşdıraraq] istişarə [müzakirə, məsləhət] etmələri dürlü-dürlü təvillərə [yozumlara] yol açmışdı. Hasili, kapitalizm ilə imperializmin üzləri kəndi əlləri ilə qazdıqları quyulara doğru çevrilmişdir. Qalibiyyət əncamı demokratiyanındır. Çünki haqq onlarındır. Bu mühəqqəq [şübhəsizdir].

## MƏTBUAT

Məlum olduğu üzrə, İngiltərə komandanlığı miralay [polkovnik] Şattlvortun imzası ilə rəsmi bir intibahnamə [bildiriş] nəşr edərək [yayaraq] Cəbrayıl, Zəngəzur, Şuşa və Cavanşir qəzalarında general-qubernatorluq təsis edildiyi, general-qubernator Xosrov bəy Sultanov cənablarına İngiltərə komandanlığının müzahirət [dəstək] göstərdiyini qeydlə, bütün əhalinin ona tabe olması və onun əmrinə hamının bilaqeydü-şərt [qeydsiz-şərtsiz] əməl etməsi lazım gəldiyini təbliğ etmişdi. Bu iş Erməni Milli Komitəsinin xoşuna getməmişdir. Məzkur [adı çəkilən] komitənin naşiri-əfkarı [fikirlərini yayan orqanı] "Naşe vremya" qəzetəsi ingilislərdən narazı qalaraq şikayət edir ki:

*"Biz güman edirdik və inanmaq istəyirik ki, Böyük Britaniya Zaqafqaziyaya alman və türklər kimi hər növlə Azərbaycan və Gürcüstana kömək edib Ermənistanı zəif salmaq üçün gəlməyib, özünün sabiq müttəfiqi olan Ermənistana ayrıca iltifat göstərməsə də, bari həyati məsələlərdə türk və alman vəziyyəti də olmayacaqdır."*

Amma Londonda ermənilər şərəfinə nümayiş qurulduğu və ingilis hökuməti başçısı Lloyd Corc və sairləri ermənilərə xeyirxah olduqları halda, onların nümayəndələri burada hər işi Erməni Milli Komitəsinin kefi istədiyi kimi etməyirlər. Əlbəttə bu da sabiq "müttəfiq"in damağına dəyir.

Fəqət İngiltərə nümayəndələri nə yapmışlar?

Azərbaycanın ayrılmaz bir qismi olan Qarabağda hamının general-qubernatora tabe olmasını təbliğ etmişlərdir.

Bu isə "bütün erməniləri heyrətdə buraxaraq məyus etmişdir". Çünki:

*"Ermənilər deməyirlər ki, Zaqafqaziya millətləri arasından onları ayırıb tək onlar himayə altına alınsınlar."*

Amma:

*"Tatarlardan ayrı yaşayıb da türklərin hücumu vaxtı belə özünü türklərdən və azərbaycanlılardan müdafiə edə bilmiş 300 min nəfərlik bir əhaliyə xitabən böylə bir əmri ya erməni millətinin həqiqi və həyati mənafeyinə əhəmiyyət verməmək nəticəsindən verməк olar ki, bu da yarısı məhv olmuş millət arasında qan axıdılması və qırğına bais olar. Yaxud, Müttəfiqlər komandanlığının nə kimi bir vəziyyət içərisində işlədiyini anlamamaqdan nəşət edər [irəli gələr]."*

Əlbəttə, ermənilərin anası daşlı qovurğa verib onları xalqa tapşırmışdır. Ona görə, kefləri nə istəsə gərək mövcud olsun. Ancaq, Müttəfiqlər komandanlığı onların bütün istədiklərinə əməl etdikdən sonra Erməni Milli Komitəsinə məsləhət etməmiş çörək yesə, yenə həman "amma" meydana çıxacaqdır.

## BAKI XƏBƏRLƏRİ

**Gəncə Müəllimlər İttifaqı nümayəndələrinin vürudu [gəlişi]**

Bu günlərdə Gəncə Müəllimlər İttifaqı nümayəndələri Mirzə Cavad Axundzadə və İsmayıl bəy Bakıya varid olmuşlardır [gəlmişlər]. Mumaileyh [adı çəkilən] əfəndilər Azərbaycan Hökuməti nəzdində Gəncə müəllimlərinin maddi cəhətini yaxşılaşdırmaqdan ötrü təşəbbüsatda bulunmaqla bərabər, Bakıdakı Müəllimlər İttifaqı ilə irtibat peyda etməyə çalışacaqlardır.

**"Müsavat" firqəsi cənbində müvəqqəti mütəallimlər heyəti**

Bununla arxadaşlara nisan ayının 11-dən etibarən "Müsavat" firqəsi cənbində [nəzdində] müvəqqəti mütəallimlər [şagirdlər] heyəti təşkil olması xəbər verilir. "Müsavat" məramnaməsinə hüsn-rəğbət göstərən mütəallim və tələbə arxadaşlardan kəndilərini məzkur [deyilən] heyətə üzv yazdırmaları rica olunur.

Müvəqqəti İdarə "Müsavat"ın təbliğat və təşkilat odasında açıqdır 5-dən 7-ədək.

*Müvəqqəti İdarə*

**Fəhlə həyatı**

Martın 29-da Suraxanı Fəhlə Klubu əzasından [üzvlərindən] bir neçəsinin təşəbbüsü ilə musiqi müsamirəsi [konserti] tərtib verilmişdi. Müsamirənin bütün məxarici 3497 manat, ümum mədaxili isə 5893 manat 50 qəpik olmuşdur. Saf hasilat 2396 manat yarım olaraq klubun maarif-mədəni məqsədlərinə sərf ediləcəkdir.

**Şəhər xidmətçiləri iclası**

Bazar günü Bələdiyyə Məclisi zalında Bakı Bələdiyyə İdarəsi xidmətçilərinin ümumi iclası təyin edilmişdir. Müzakirə olunacaq məsələlər bunlardır:

1) İdarənin məruzəsi;
2) 1917-1918 sənəsi məhsubatı [hesabatı];
3) 1919 sənəsi smetası;
4) İdarə əzasına [üzvlərinə] mükafat;
5) Yeni idarə intixabı [seçilməsi];
6) Təftiş komissiyası intixabı;
7) Nizamnamənin bəzi maddələrinin dəyişməsi;
8) Ariz ola biləcək [sonradan meydana çıxa biləcək] məsələlər.

İclas ikinci dəfə çağırıldığından, nə qədər əza gəlsə də qanuni hesab ediləcəkdir.

**Binəqədiyə su buraxılması**

Məlum olduğu üzrə, Binəqədi mədən dairəsi və kənddə yaşayan əhali susuzluqdan nəhayət dərəcə əziyyət və məşəqqət çəkərək Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi vasitəsilə Məsai Nəzarətinə [Əmək Nazirliyinə], Sovet Syezdə və Şəhər İdarəsinə müraciət eyləmişlərdi. Nəhayət, Şəhər Dumasının 10 nisanda vüqu bulmuş [baş tutan] iclasında Binəqədiyə su buraxılması məsələsi müzakirə edilmişdir.

Şəhər İdarəsinin bəyanatından məlum olmuşdur ki, Binəqədi su yolu xətti Şəhər İdarəsinin malı olmayıb, oraya ancaq Binəqədi su yolu şirkətinin xətti ilə su buraxılırdı. Şəhər İdarəsi ilə məzkur [deyilən] şirkət arasında əqd edilmiş [imzalanmış] müqavilənaməyə görə, şirkət bir qədər zərər etmişdir və müqavilənamə onun üçün əlverişli deyildir. Şirkətin məxarici çox olduğundan müqavilənaməni təzələmək istəməyir. Buna görə də şirkət, Şəhər İdarəsinə olan borcunu verməmiş, o da artıq suyu kəsməyə məcbur olmuşdur. Məzkur dairə və kənd əhalisi ehtiyac içində qalmışdır. İndi isə Şəhər İdarəsi məzkur şirkətlə yenidən bir müqavilənamə əqd edib onunla şirkətin nəfinə [xeyrinə] düşən hissəni hər vedrədə 4 qəpik artırmışdır. Bu miqdar gələcəkdə dəxi lazım olarsa, artırılacaqdır.

Həmin təzə müqavilənaməni Duma müttəfiqülqövl [yekdilliklə] qəbul və təsdiq etmişdir. Böyləliklə, bu günlərdə Binəqədiyə su buraxılacaqdır.

## TÜRK MÜƏLLİMİNƏ 25 SƏNƏLİK ŞƏNLİK

Nikolay rejimində türk müəlliminə olan həqarət heç bir sinifə olmayıbdır, zənn edəriz. Günəmuzd dəvət olunmuş türk müəllimi həftədə iki dərs ilə (əlbəttə, 5-6 və yaxud 6-cı dərsləri) müxtəlif məlumatlı məktəblilərə istədiyi dərsi verəmməyirdi. Dərslərin azlığı və məktəblilərin yorğun vaxtlarına təsadüf etməsi, amirlər, müdirlər aldıqları təlimat mövcibi [əsasında] milli dilləri qeyri-məcburi elan etmələri nə qədər böyük zülüm olduğunu ancaq-ancaq türk müəllimi haqqı ilə bilir. Türk dili müəllimi 50 sənə belə xidmət etsəydi nə Nikolay hökuməti, nə də millətimiz tərəfindən nəzəri-etibara alınmazdı. Ehtiram və hörmət, ancaq başımıza bəla təyin olunmuş missionerlər və onların mürəvvici-əfkarına [fikirlərinin yayılmasına] xidmət edərək, nəcib millət balalarımızın dimağına [şüuruna] "Allah bir, padişahımız da, çarımız da bir, Allah göydədir, padişahımız, sevgili çar Nikolayımız yerdədir" cümləsini təlqin edənlər uğrunda hökumət sandığından külli paralar təxsis olunaraq [ayrılaraq] 10 sənəlik, 15 sənəlik, 20 sənəlik, 25 ilaxır sənəlik şənliklər yapılaraq, dostlarının ədədini artırarlardı. Fəqət türk müəllimi ölərkən belə ianə dəftəri açılaraq güc-bəla ilə dəfn olunurdu.

Şənliyi yapmaq istədiyimiz yaşlı müəllimlərimizdən Mirzə Abbas Abbaszadə cənablarıdır. Məzkur [adı çəkilən] Mirzə Abbas əfəndi bütün həyatını müəllimliklə keçirmiş bir zatdır. Məzkurun açdığı xüsusi məktəbi nəzərə alarsaq və xüsusi xidmətlərini sayarsaq, nəinki 25, 30 sənəlik şənlik yapmalıyız. Şərəfinə nə 10, nə 15, nə 20, 25 sənəlik şənlik yapılmamış möhtərəm üstadımıza layiq mütəntən [təntənəli] bir şənlik yapılacaqdır. Gəncə Türk Müəllimləri İttifaqı yubiley komisyonu seçmiş, məramnamə və smeta təqdim etməsini təklif etmişdir.

Həyatını türk millətinin tənviri-əfkarına [düşüncəsini işıqlandırmağa] həsr etmiş Mirzə Abbas Abbaszadə cənablarını Qafqaz ziyalılarının çoxu tanıdığı kimi, Kazan, Krım, Türküstan və İstanbul türkləri də tanıyırlar, zənn ediriz. Zira, məzkur dərs verməndən başqa, türkcə dərsinin təlimi-dərsi uğrunda çox çalışmış və nəticədə "Türk dili" "Birinci", "İkinci kitab" nam dərs kitabları təlif edərək [yazaraq] nəşr etmişdir. Azərbaycan məktəblərinin bir çoxunda Mirzə Abbasın əlifbaları qəbul olunmuşdur. Bundan başqa Abbas əfəndinin "Şəriət dərsi", "Qiraəti-farisi", "Məşq məcmuəsi", "Lətaif", "Arvad ağısı" nam mətbu [çap olunmuş] kitabları vardır.

Məzkuru tanıyanlar gözəlcə bilir ki, həqiqətən hörmətə layiqdir. Vücudu zəif, kəndisi yaşlı olduğu halda, işdən əsla çəkinməyir, yorulmaq, usanmaq bilməz məslək sahibi bir zati-möhtərəmdir. Həqiqi bir türk pedaqoqudur. Azərbaycan türkləri, ələlxusus ziyalılar üstadımız Mirzə Abbas Abbaszadə əfəndinin şərəfinə tərtib olunacaq şənliyə iştirak etməklə vəzifeyi-milliyyələrini ifa edərlər, zənn ediriz.

*Gəncə, İdris [Axundzadə]*

## AZƏRBAYCANDA

**Qarabağ əhvalı**

Ərzaq Nəzarətinin Qarabağda olan vəkili Axundov böylə bir teleqraf göndərmişdir:

Aprelin 6-da Şuşada neft satışından ötrü olan mal təqsim edici [paylayıcı] şöbəyə varid olub [gedib], işi mütəşəkkil bir hala saldım. Zəngəzur uyezdində acından ölənlərin miqdarı gəldikcə artmaqdadır. Orada böyük üşr mövcudları vardır. Lakin yol olmadığına görə Hərbiyyə İdarəsi indiyə qədər bu taxıl mövcudunu təhvilə ala bilməyir. Bu taxılı oradan çıxarmağa heç imkan yoxdur. Taxıl anbarlarda çürüyür. Qaçqınları və ac əhalini doyurmaq üçün külli miqdarda olan üşr mövcudundan istifadə etməyə icazə almaqdan ötrü Zəngəzura getməyə məcbur olmuşam. Bu tərəfin müsəlman əhalisi həlak olmaqdadır. Ciddi müavinət lazımdır. Cəbrayıl və Zəngəzur uyezdlərində [qəzalarında] olan vəkillər xəbər verirlər ki, minlərcə əhali çılpaq gəzir. İnsan onların ehtiyacına sakit baxa bilməyir. 30 min arşın manufaktura [parça] göndərilməsini və həmçinin Tağıyev fabrikasından bez almaq üçün tədbirlər görülməsini Hökumətdən ciddi surətdə xahiş edirəm.

## ERMƏNİSTANDA

Paris Konfransında Rus Komissiyası heyətinin nümayəndəsi Amerika leytenantı Xaçaturyan İrəvana varid olmuşdur [gəlmişdir]. Xaçaturyan izhar etmişdir [bildirmişdir] ki, Ermənistanın hökumət etməyə hazır olması məsələlərini öyrənməkdən ötrü Qafqaziyaya – Ermənistana göndərilmişdir. Xaçaturyan Ermənistanın və erməni millətinin həyatına hərtərəfli dəxli olan 60 qədər hazırlanmış suallar verib dürüst cavablar almışdır. Xaçaturyanla bərabər Amerika Müavinət Komitəsi nümayəndəsi, Amerika müxbiri və Xariciyyə Nəzarəti nümayəndəsi Arrol da varid olmuşdur. Aşkar olur ki, Ermənistan Amerikanın və ya İtaliyanın təhti-himayəsində [himayəsi altında] olsun. İngiltərə təhti-himayəsi təsəvvür olunmayır. Fransızlar da özləri istəməyirlər. Amerikalılar hansı bir təhti-himayəni öz öhdələrinə alacaqları məsələsini hələ əsasən həll etməmişlərdir. İtaliyalılar artıq həvəs edirlər. İrəvanda olan İngiltərə nümayəndəsi əmr almışdır, Zod kəndinə gedib Dağkəsəmənskinin tələb edilməsində Erməni İstintaq Komissiyasına müavinət [kömək] etsin. Həman Dağkəsəmənskinin evində erməni saldatları və zabitləri qətl edilmişdir. Hərgah, İngiltərə nümayəndəsi müsbət nəticələrə nail olmasa, Bakıya teleqraf edib əsgər tələb etməli olacaqdır.

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*

**Doktor**
**Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Mən, Bakı sakini Məhəmmədbağır Qafar oğlu bununla elam edirəm [bildirirəm] ki, hər kəsə bugünəcən bacımın və qardaşım Əliabbasın borcu varsa, bu gündən bir ayacan verməyə hazıram. Sonra qəbul etməyəcəyəm. Bakı, Verxni-Naqornı küçə, nömrə 7.

*Məhəmmədbağır Qafar oğlu*
*8709*

**Sentrodom**

Bununla Bakı əhalisinə elan edir ki, aprelin 12-dən hamı uçastkovı komitə dükanlarında əhaliyə quruyemiş ən ucuz qiymətə paylanacaqdır. Şeylərin adları və qiyməti hər dükanda mövcuddur.

*6711*

**Elan**

Bakı İstiqrazı-Mütəqabilə Cəmiyyəti İdarəsi bununla Cəmiyyət üzvlərinə elan edir ki, aprelin 6-da vaqe olan ümumi iclasın qətnaməsinə görə, bazar günü aprelin 13-də səhər saat 10-da Şəhər İdarəsi salonunda ümumi iclası təyin olunubdur. İclasda aprelin 6-dakı gündəlik məramnaməsinin mabədi müzakirə ediləcəkdir.

*T-104*

**Bakı İkinci**
**İstiqrazı-Mütəqabilə Cəmiyyəti**

Cəmiyyət üzvlərini xəbərdar edir ki, fövqəladə iclası aprelin 13-də saat 10-da Bankın binasında təyin olunubdur.

Müzakirə ediləcək məsələlər:

1) İdarəyə gəlməyən üzv Sergey İvanoviç Çiknaverovun yerinə təzə üzv intixabı.

2) Öz xahişi ilə istefa vermiş Cəmiyyətin hesabdarına (buxqalter) bəxşiş verilmək barəsində.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi***

"Aksiz vergili ticarətə və sənaətə…": tərcüməsindəki və imlasındakı qüsurlar səbəbilə anlaşılmaz olan bu maddə belə başa düşülməlidir: Aksiz vergisinə cəlb edilən malların satışı və istehsalı ilə məşğul olan şəxslər, bu ticarət və istehsalat fəaliyyətini, Hökumət xəzinəsi xeyrinə əlavə 25%, 10% və 50% yığım da daxil olmaqla, ödədikləri patentə uyğun müddət ərzində davam etdirə bilərlər; müddətin hesablanmasında cari ilin 6 martında qəbul edilən qanunda göstərilən patent qiymətləri əsas götürülür.

***Siyasətə qarışmaz***

"haranın çağalası bəlli olmayan": "çağala" bəzi meyvələrin yetişməmiş halına deyilir; "haranın çağalası bəlli olmayan" ifadəsi "haradan çıxdığı məlum olmayan", "mənşəyi bilinməyən" mənasında işlədilir.

"M. Ə.": bu imza Məhəmməd Əmin Rəsulzadəyə məxsusdur.

***Azərbaycan Məclisi-Məbusanında***

"Rza bəy Ağabəyov": qəzetdə "Rza bəy Ağasıbəyov" kimi getmişdir.

"…Aleksandri-saninin qanunu bilküliyə qəbul olunur…": II Aleksandr dövründə Rusiyada təhkimçilik hüququ, maliyyə, təhsil, yerli özünüidarə və bir sıra başqa sahələrdə islahatlar həyata keçirilmişdir. II Aleksandrın islahatlarının başlıcalarından biri də məhkəmə islahatı idi.

"Binaənileyh, kassasiyaya da Hərbiyyə naziri təkbaşına deyil…": qəzetdə "kassasiyaya" yerinə "Qafqaziyaya" getmişdir.

***Teleqraf xəbərləri***

"Tofiq paşa Kabinəsi": Osmanlı sədrəzəmi (Baş naziri) Əhməd Tofiq paşa (Əhməd Tofiq Okday) nəzərdə tutulur.

"Maliyyə naziri Tofiq paşa": Məhməd Tofiq Biren nəzərdə tutulur.

"Camal paşa Daxiliyyə naziri": Camal Keşmir nəzərdə tutulur.

"Avam Kamerası": Böyük Britaniya Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

***Sülh ətrafında***

"Ağa Xan": müsəlman ismaililərin lideri III Ağa Xan nəzərdə tutulur.

"…mövqifdə Bikaner tərəfindən istiqbal edilmişdir.": güman ki, Hindistanın şimal-qərbində mövcud olmuş Bikaner knyazlığının maharacası Qanqa Sinx [Ganga Singh] nəzərdə tutulmuşdur.

"Deyli meyl" [Daily Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

***Türkiyə xəbərləri***

"Tayms" [The Times]: Britaniyada 1785-ci ildən etibarən nəşr edilən gündəlik qəzet.

"Buxara əmiri": Buxaranın sonuncu əmiri Alim xan (Seyid Mir Məhəmməd Alim xan) nəzərdə tutulur.

"Əfqanıstan əmiri Buxara ordusu ilə idarəsinin…": burada 1901-ci ilin oktyabrından 1919-cu ilin 20 fevralına qədər Əfqanıstan əmiri olan Həbibulla xandan söhbət gedir.

"Zati-şahanə": Osmanlı sultanı VI Məhməd nəzərdə tutulur.

"…pədəri Səmərqənddə müfti ikən…": söhbət Həbibulla xanın atası, 1880-1901-ci illərdə Əfqanıstan əmiri olan Əbdürrəhman xandan gedir.

"…-zəfəri əmir Həbibullanın məsləyindəki… təyid və təsdiq eyləmişdir.": Cümlənin bəzi yerləri oxunmur.

***Nəzarətlərdə***

"Baş Fabrik müfəttişi": Sənaye müəssisələrində əmək şəraitinə nəzarət edən dövlət qurumu Fabrik Müfəttişliyinin baş müfəttişi.

***Milli dilimiz***

"edadi": orta məktəbin ali təhsilə hazırlıq mərhələsi; lisey.

"Müəllim Davud": bu imza Davud Ağamirzəyevə məxsusdur.

***Əczaxana təhlükəsi***

"Nikolay küçəsi": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

"Ola bilsin ki…": qəzetdə "öylə bilsin ki" getmişdir.

***Konfrans***

"Cavad bəy": çox güman ki, Əhməd Cavad nəzərdə tutulur.

"Bordo Darülfünunu professorlarından… Jan Jores": Jan Jores Tuluza Universiteti professoru olmuşdur.

"Lloyd Corc": qəzetdə "Lord Jorj" kimi getmişdir.

***Bakı xəbərləri***

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayının rəhbər orqanı olan Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

***Azərbaycanda***

"üşr": əkinlərdən məhsulun onda biri miqdarında alınan vergi.

***Ermənistanda***

"Amerika Müavinət Komitəsi": Birinci Dünya müharibəsindən sonra Avropa ölkələrinə qida yardımı göstərən Amerika Yardım Administrasiyası [American Relies Administration] nəzərdə tutulur.

"Dağkəsəmənski": bu soyadı qəzetdə təhrif edilmişdir.